# Qələbə səninlədir, Azərbaycan Ordusu!

## Ali Baş Komandan:

# Düşmənlə nə qədər danışıqlar aparmaq olar?



***Bizdə dəqiq məlumat var ki, Ermənistan döyüş meydanında artıq bizim qabağımızda diz çöküb və sadəcə olaraq, atəşkəsdən istifadə edib öz qüvvələrini yenə də səfərbər etmək istəyir, yenə də silahlanmaq istəyir və bizə qarşı yeni işğalçılıq siyasəti aparmaq istəyir.***

**Prezident İlham Əliyevin xalqa 26 oktyabr tarixli müraciətindən**

**Bütün azərbaycanlılar, dostlarımız, tərəfdaşlarımız və ədalətli olmağı bacaran, obyektiv düşünən hər kəs kimi mən də inanıram ki, xalqımızın bu azadlıq müharibəsi tezliklə, həm də uğurla başa çatacaq. Ona da inanıram ki, həmin xoş xəbərin yayılmasından dərhal sonra yaradıcı birliklərimiz və ya hansısa ziyalımız cənab Prezidentin Vətən müharibəsi günlərindəki müsahibələrini, müraciətlərini və çıxışlarını toplayaraq milli tariximizin ən dəyərli kitablarından birinə çevirəcək. İnşallah!**

Ancaq arzu edərdim ki, həmin kitabda görkəmli şairimiz Süleyman Rüstəmin ötən əsrin altmışıncı illərində qələmə aldığı "Qarabağ" qəzəlinə də yer ayrılsın. Çünki həmin qəzəl də elə "Qarabağ şikəstəsi" kimi bütün azərbaycanlıların ürəyindən xəbər verir, ruhunu təzələyir, könlünü oxşayır. İstər doğulub böyüdüyüm rayonda, istərsə də uzun illər yaşadığım Bakıətrafı qəsəbələrdən birində – harada olsam, hər il ilıq bahar günləri böyük şairin həmin qəzəlindən əzbər bildiyim beytləri zümzümə eləmişəm:

*"Hər bahar fəsli bu könlümdə*
*adın qönçələnir,*
*Səni mən görməmişəm gör ki,*
*haçandır Qarabağ!"*

Doğrudan da, gör ki, haçandır, Qarabağı görmürük? Tanrı şanlı ordumuzu qorusun, müzəffər Ali Baş Komandanımızı hifz eləsin, rəşadətli əsgərlərimizə yardımçı olsun ki, tezliklə Qarabağı görə bilək. Görəcəyik. Özü də tezliklə. Çünki bu gün artıq münaqişənin həlli üçün hüquqi baza kifayət qədər genişdir. Eyni zamanda, ordumuzun uğurları diplomatik nailiyyətlərimizin tamamlanmasıdır. Yəni zəfər bizimdir.

Şükürlər olsun ki, Prezident İlham Əliyev 2003-cü ilin payızından etibarən yorulmadan davam etdirdiyi hücum diplomatiyasını bu gün əks-hücum diplomatiyası ilə zənginləşdirir. Sentyabrın 27-dən bəri xalqa müraciətlərini, dünyanın aparıcı kütləvi informasiya vasitələrinə müsahibələrini, sosial şəbəkədəki qeydlərini başdanbaşa torpaqlarımızın işğaldan azad olunmasına həsr etmiş Prezident, əslində. bu fəaliyyəti ilə mükəmməl diplomatik gedişlər edir və lazım olan bütün ünvanlara gərəkli mesajlar göndərir.

Ali Baş Komandanımızın oktyabrın 26-dakı müraciəti, bu baxımdan, daha mükəmməl, qətiyyətli və kəsərli təsir bağışlayırdı. Çünki bəzi ikili standart müəllifləri və ağzının kəsəri olmayan beynəlxalq təşkilatlar hələ də işğalçını, terrorçunu, qaniçənlər ordusunu dəstəkləyir, özgə torpaqlarında dövlət qurmuş Ermənistanı xilas etməyə çalışırlar. Ona görə də, dövlət başçımız həmin dairələrin hamısına tutarlı mesajlar göndərir.

Məsələn, dövlət başçımız xatırladır ki, Minsk qrupunun həmsədrləri, elə bil, bizi bu vəziyyətlə barışmağa sürükləyirlər. Yəni yeni reallıqlar yaranıb, siz də reallıqlarla hesablaşmalısınız. Yeni reallığı biz yaratmışıq. İndi hər kəs yeni reallıqla hesablaşmalıdır: "Amma biz nəyi görürük? Biz öz torpaqlarımızı işğalçılardan azad etməyə başlayanda, görün, nələr baş verir. Nə qədər böyük təzyiq göstərirlər Azərbaycana, hər tərəfdən. Əl-ayağa düşdülər. Bəs, nə oldu? İyirmi səkkiz il bu məsələni belə süründürə-süründürə elə bil ki, həll edirdiniz. Gəlib-getmək, orada görüş, burada danışıqlar. Biz bu danışıqlardan boğaza yığılmışıq. Bu düşmənlə nə qədər danışıqlar aparmaq olar?"

Xatırladaq ki, həmin nəticəsiz danışıqlar düşməni daha da harınlaşdırır, azğınlaşdırır və qudurdurdu. Məhz bu hiyləgərlik və fitnəkarlıqların yaratdığı imkandan bəhrələnən Ermənistan yeni torpaqlar işğal etmək istəyinə düşmüşdü. Azərbaycan Ordusu onlara "dur!" deyəndə, qulaqburması verəndə isə bizə deyirlər ki, yox, münaqişə ancaq sülh yolu ilə həll edilməlidir, bunun hərbi variantı yoxdur. Dövlət başçımız bu məqamda beynəlxalq aləmdəki anti-Azərbaycan dairələrə üz tutur: "Kim deyir ki, yoxdur? Bəs, indi məsələnin hərbi variantı deyilmi? Biz nə edirik? Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına yerinə yetiririk. Halbuki, bu, BMT Təhlükəsizlik Şurasının vəzifəsidir. Biz təkbaşına icra edirik. Biz yeni reallıq yaratmışıq. Hesablaşın! Ancaq nə görürük? Orada görüş, burada görüş, atəşkəs belə oldu, atəşkəsi kim pozdu".

İndi məlum olur ki, Ermənistanı Azərbaycan əsgərinin əlindən almağa, işğalçını xilas etməyə çalışanlar təkcə ermənipərəst qüvvələr deyil. Həmin cəbhədə anti-Azərbaycan qüvvələr də, anti-türk ünsürlər də, silah istehsal edib satanlar da, beynəlxalq nəzarətdən kənarda qalmış Dağlıq Qarabağ ərazisindən narkoticarət məkanı kimi istifadə edənlər də, bəzi ərəb ölkələrindəki terrorçu təşkilatlara təlim məşq toplantı yeri kimi Xankəndi ətrafını seçənlər də– yəni bütün mənfi xislətli qurumlar və eybəcər birləşmələr toplaşıblar. Bir el məsələndə deyildiyi kimi, hər peyinin öz milçəyi olur. Yəni, işğalçı Ermənistanı dəstəkləyənlər və onu xilas etməyə çalışanlar da elə Ermənistan rəhbərliyi ağlında olar. Xocalı soyqırımını törədəni, Gəncəni Ermənistan ərazisindən ballistik raketlərlə vuranı xilas etməyə çalışanlar da həmin qanlı faciələrə şərik olduqlarını gizlətmirlər.

Dövlət başçımız Ermənistanı silahlandırmaqla işğalçıya yeni nəfəs vermək istəyən qüvvələrə də mesaj göndərir: "Bizdə dəqiq məlumat var ki, Ermənistan döyüş meydanında artıq bizim qabağımızda diz çöküb və sadəcə olaraq, atəşkəsdən istifadə edib öz qüvvələrini yenə də səfərbər etmək istəyir, yenə də silahlanmaq istəyir və bizə qarşı yeni işğalçılıq siyasəti aparmaq istəyir. Belə məlumatlar var və əfsuslar olsun ki, son bir ay ərzində Ermənistana kütləvi surətdə silahlar göndərilir, müxtəlif növ silahlar. Bütün siyahılar bizdə var. Onların bəziləri bizim mətbuatda da dərc edilib. Bütün siyahı var, nə vaxt, hansı təyyarə gəlib, haraya gəlib, nəyi gətirib, necə boşaldıb, haraya göndərilib? Yaxşı, atəşkəsi istəyən niyə silah göndərir Ermənistana? Axı, Ermənistan diz çöküb, artıq onun başından elə vurmuşuq ki, ayıla bilmir".

Ancaq dünya təkcə ölkəmizin bədxahlarından və erməniləri bəsləyənlərdən ibarət deyil. Beynəlxalq hüququ dəstəkləyən, ədalətli mövqe ortaya qoyan, sülhə, sabitliyə çalışan, tərəqqiyə, inkişafa can atan dairələr də istənilən qədərdir. Onlar dünya siyasətinin mühüm bir qütbünü yaradırlar. Dövlət başçımız oktyabrın 26-dakı müraciətində bu məsələyə də toxundu: "Münaqişənin həlli üçün hüquqi baza kifayət qədər genişdir. Biz bu bazanı genişləndirmişdik. Bu gün təkcə BMT Təhlükəsizlik Şurasının qətnamələri yox, digər sənədlər mövcuddur. BMT Baş Assambleyası qətnamə qəbul edib, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, digər təşkilatlar. Avropa İttifaqı ilə paraflanmış sənəddə ölkəmizin suverenliyi, sərhədlərimizin toxunulmazlığı və ərazi bütövlüyü haqqında xüsusi müddəa var. Yəni, bu, hüquqi bazadır və bu baza imkan verir ki, bu gün biz döyüş meydanında düşmənə dərs verək, qovaq onları, rədd edək bizim torpaqlarımızdan".

Yeri gəlmişkən, Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik etməsi də bizim Dağlıq Qarabağı işğaldan azad etmək yolunda atdığımız addımlara öz müsbət təsirini göstərməkdədir. Son günlər baş verən hadisələr də bunu bir daha sübut etdi. Prezident xatırladır ki, bu yaxında Minsk qrupunun həmsədr ölkələri BMT Təhlükəsizlik Şurasının iclasını çağırıblar: "Bir dəfə artıq bunu etmişdilər. Orada qəbul edilmiş sənəd görünür ki, onları qane etmədi. Bu dəfə də bir neçə gün bundan əvvəl biz yeni sənədin ortaya çıxmasını gördük, xəbər tutduq. Dərhal biz hərəkətə keçdik və bu sənədin qəbul edilməsinə imkan vermədik. Baxmayaraq ki, üç həmsədr ölkə BMT Təhlükəsizlik Şurasına üzv olan digər ölkələrə böyük təzyiqlər edirdi".

Sən demə, Minsk qrupunun həmsədrləri Ermənistanı xilas etmək üçün BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin qüvvəsini itirməsinə nail olmaqdan ötrü bu hoqqaları çıxarırlarmış. Gənc müstəqil Azərbaycanın qüdrətli Prezidenti həmin riyakar və şərəfsiz planın baş tutmasına imkan vermədi. Bu işdə bizə Qoşulmama Hərəkatının fəal üzvü olan ölkələr də kömək etdilər.

Prezident xatırladır: "Biz yenə də işğalçıya dəstək göstərilməsi cəhdini gördük. Amma nə oldu nəticədə? Keçmədi. Necə keçmədi? Qoşulmama Hərəkatına üzv ölkələr kişi kimi buna imkan vermədilər, bizə dəstək göstərdilər, sağ olsunlar. Baxmayaraq ki, onlara təzyiq göstərildi, bəlkə də hədələr oldu. Amma durdular kişi kimi bizim arxamızda, necə ki, biz onların arxasında dururuq. Bu, onu göstərir ki, keçməyəcək. Mənim əziz qardaşım, Türkiyə Cümhuriyyətinin Prezidenti dəfələrlə deyib ki, dünya 5-dən böyükdür. Tam haqlıdır. Bax, bu səsvermə onu göstərdi. Birləşdilər, yenə də Ermənistanın maraqlarına cavab verən sənədi ortalığa atdılar, amma keçmədi. Çünki ədalət var".

Bu sətirləri dövlət başçımızın beynəlxalq aləmdəki bədxahlarımıza ünvanladığı başqa bir mesajla tamamlamaq istəyirəm. Az qala, bütün əcnəbi jurnalistlərin Azərbaycanda F-16 qırıcı təyyarələrinin olması barədə verdiyi suallardan bezmiş Prezident deyir: " Mən cavab verməkdən yorulmuşam. Gedin açın, peykiniz var, görmürsünüz nə gəzir? Gedin baxın F-16 neyləyir, havadadır, yerdədir? Hər kəs bilir ki, yerdədir. Özü də təlimlər üçün gəlib və müharibə başlayanda qalıbdır. Türkiyəli qardaşlarımız onları bizə mənəvi dəstək vermək üçün saxlayıblar. Bir də ki, əgər bizə qarşı kənardan təcavüz olarsa, o F-16-ları görəcəklər onlar".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***